


Рисунок 1 – Глобальні проблеми як складова економічного розвитку (сформовано автором)

Література:

1. Belei S.I., Boida S.V., Kolosinska M.I. (2020). Global economy. Chernivet national university named Yuriy Fedkovycha. URL: http://surl.li/dcgny
2. Ben Lutkevich (2021). What is globalization? URL: https://www.techtarget.com/searchcio/definition/globalization
3. Melina Kolb (2021). What Is Globalization?. *Peterson Institute for International Economics*. URL: https://www.piie.com/microsites/globalization/what-is-globalization

## AZƏRBAYCANDA EFFEKTİV İSTEHSAL PROSESİNİN YÜKSƏLDİLMƏSİNİN ƏSAS HƏDƏFLƏRİ

*Əliyev R.R., t.ü.f.d., dosent*
*Mingəçevir Dövlət Universiteti*

İstehsalın intensivliyində dönüş yaratmaq, hər bir müəssisə, təşkilat, firmanın, ilk növbədə, orientasiyasını dəyişmək vacib amil kimi dəyərləndirilir. Bazar iqtisadiyyatına keçid hərtərəfli inkşaf etmiş məhsuldar qüvvələrlə, istehsal əlaqələrilə və yaxşı təsərrüfat mexanizmləri ilə təmin olunmalıdır.

İctimai istehsalın səmərəliliyinin arturılmasmda əsas faktor, əvvəllər olduğu kimi müasir dövrdə də, elmi-texniki tərəqqidir (ETT). Son zamanlara qədər ETT tədricən inkşaf etmişdi. Əvvəllər işləyən texnologiya, maşın və avadanlıqların bəzi elementlərinin təkmilləşdirlməsinə üstünlük verilirdi. Bu tədbirlər istehsal prosesinə müəyyən, lakin köklü surətdə təsir göstərmirdi.

Yeni texnika üzrə tədbirlərin işlənib hazırlanması lazımı səyiyyədə stimullaşdırılmırdı. Müasir şəraitdə bazar əlaqələrinin formalaşdırılmasmda inqilabi, keyfiyyətli dəyişikliklər etməklə yanaşı, prinsipial surətdə yerli texnika və texnologiyaya keçid - elm və texnikanın son nailiyyətləri əsasında bütün istehsal sahələrində təçhizat vasitələri köklü surətdə təkmilləşdirilməlidir.

Fikrimizcə, ETT aşağıdaki əsas istiqamətlərinə daha çox diqqət yetirilməlidir:

- *mütərəqqi texnologiyaya tam yiyələnmək:* təzyiq və impuls yükündən istifadə etməklə innovasiya, kreativ, lazer texnologiyası və s.;
- *istehsalın avtomatlaşdırılması:* robot texnikasının, rotor və rotorkonveyer xətlərinin sürətlə inkişafı, avtomatlaşdırımış çevik istehsal yüksək əmək məhsuldarlığını təmin edir;
- yeni növ metal materialı, plastik kütlə, metal tozları, keramika və başqa mütərəqqi konstruksiya materiallarının yaradılması və istifadəsi.

Bazar iqtisadiyyatına keçid şəraitinin ilk mərhələsində elmi-texniki xarakterli tədbirlərin həyata keçirilməsi çox vacibdir. Müəssənin kollektivi və onun rəhbərləri başlıca diqqəti əməyin stimullaşdırılmasına yönəltməlidirlər. Müəssisənin bazar əlaqələri inkişaf etdikcə, onun perspektiv inkişafına daha diqqət yetirməyə başlanır və müəyyən vəsait yeni texnikaya - istehsalın yenilənməsinə, yeni məhsul buraxılışına istiqamətlənməlidir.

İstehsalın intensivləşdirilməsi və səmərəliliyinin yüksəldilməsinin əsas faktorlarından biri *qənaət rejimidir.* Resursa qənaət - artmaqda olan xammal və materiala, enerjiyə, yanacağa da aid edilir. Yüksək effektli aztullantılı və tullantısız texnoloji proseslərin yaradılması və tətbiqi, xammal və yanacaq-energetika resursları, konstruksion və digər materialların istifadəsinin yüksək səmərəliliyini təmin etməkdən otrü, yeni maşın, avadanlıqların istehsalı və sənayeyə tətbiq edilməsi bu günün ən aktual məsələlərindən biridir.

Bu gün milli gəlir vahidi ilə hesabda biz yanacaq-energetika, metaldan istifadə inkişaf etmiş ölkələrlə müqayisədə daha çox vəsait sərf edirik. Bu hal çox həcmli istehsal zamanı resursların tükənməsinə, çatışmamasına gətirib çıxarır. Buna görə də ETT-nin yüksəldilməsinin həlledici şərti *milli maşınqayırmanın köklü surətdə modernləşdirilməsi* - bütün istehsal sahələrinin müasir tələblərə uyğun qurulmastdır.

İctimai istehsalın səmərəliliyinin yüksəldilməsində *əsas fondlardan səmərəli istifadə* önəmli yer tutur. Yaradılan istehsal potensialından səmərəli istifadə etmək, istehsalın ritmik olmasına çalışmaq, avadanlığın maksimum yüklənməsi və bunun əsasında da hər bir kvadrat metrindən düzgün istifadə etmək lazımdır.

İstehsalın intensivləşdiriiməsi və onun səmərəliliyinin yüksəldilməsi faktorlarından biri də *iqtisadiyyatın strukturunun təkmilləşdirilməsidir.* ETT təmin edən sahəni daha yüksək templə inkişaf etdirmək, sosial məsələni müvəffəqiyyətlə həll etmək və aqrar-sənaye kompleks sahələrinin də yaxşılaşdırılmasına səy

göstərmək lazımdır.

İnvestisiya siyasəti kapital qoyuluşunun səmərəliliyinin artırılmasının təmin olunmasına yönəldilməlidir. ETT sürətləndirilməsi, sosial tələbatı təmin edən sahənin xeyrinə vəsaitlərin bölüşdürüməsini həyata keçirmək kimi məsələlərin həlli qarşıya çıxır. Vəsaitin böyük hissəsi texniki silahlanmaya və fəaliyyətdə olan müəssisənin yenidən qurulmasına istiqamətlənməlidir.

ETT əsası sayılan maşınqayırma sənayesi, yuxarıda deyildiyi kimi, daha sürətlə inkişaf etdirilməlidir. Bu sahədə, əsasən, dəzgahqayırma, elektrotexnika, nano - mikroelektronika, cihazqayırma, informatika sənayelərinə üstünlük verilməlidir.

Yanacaq-energetika balansının strukturunun yaxşılaşdırılması atom energetikasının təhlükəsizliyinin maksimum təmini istiqamətində baş verə bilər.

İstehsalın səmərəlilik səviyyəsinə müəyyən təsir göstərən amillədən biri də *istehsalın sosial infrastrukturunun* təkmilləşdirilməsi və sonrakı inkişafıdır. İdarəetmə - idarəetmə metodları, planlaşdırılma, bütün təsərrüfat mexanizmlərinin iqtisadi stimullaşdırılmasıdır. Planlaşdırma - planların reallığı və balanslaşdırılması, onun fəaliyyətini əks etdirən plan göstəricilərinin optimal quruluş sistemidir. Bu qrup faktorlara - təsərrüfat hesablamaları və maddi mükafatlandırma, maddi-məsul və digər təsərrüfat hesablı iqtisadi stimulların vasitələrinin tətbiqi aid edilir.

İqtisadiyyatın intensivleşdirilməsində, resursların xüsusi çəkisinin azadılmasında *məhsulun keyfiyyətinin artırılması* mühüm əhəmiyyət kəsb edir. Texniki səviyyənin yüksəldilməsi üzrə keçirilən tədqiqatların nəticələri göstərir ki, məhsulun keyfiyyəti və işin yerinə yetirilməsi müasir təlabata cavab vermir. Bu məsələ ümumxalq vəzifə olmaqla yanaşı, daim diqqət və nəzarət altında olmalıdır.

Bazar əlaqələrinin formalaşdırılması şəraitində istehsalın səmərəliliyinin artırılması geniş vüsət alır.

Hazırda istehsal və xidmət sahələrində struktur islahatlar həyata keçirilir. Yüksək texnologiya əsasında rabitə, nəqliyyat, tikinti kimi vacib sahələrdə təkmilləşdirmələr aparılır, dünya elmi-texniki səviyyəsinə çatmaq, dövlət, özəl, aksioner, birgə müəssisələrin müstəqil formada fəaliyyəti tam təmin edilir.

Bütün bunların nəticəsində sivil bazar təsərrüfatı formalaşdırılır. Bu da əmək məhsuldarlığının artırılmasını stimullaşduır, bütün ictimai, istehsalın səmərəliliyini artırır və xalqın rifah halının yaxşılaşmasına yönələn ictimai bolluq yaradır.

Ədəbiyyat:

1. A.S.İsayev İstehsalın təşkili əsasları. Bakı, 2009.

2. Алиев Р.Р. Эффективная промышленная политика в условиях перехода к рынку. Сборник научных трудов УТА и КГУТД, №11. Киев, 2002.